**Azərbaycan və Macarıstan arasında qida təhlükəsizliyi üzrə əməkdaşlıq**

- AQTA yarandığı gündən etibarən Macarıstan Respublikasının müvafiq qurumları ilə ikitərəfli əməkdaşlıq edir. Bu əməkdaşlıq əsasən, qida təhlükəsizliyi, baytarlıq, fitosanitar nəzarət, laboratoriya fəaliyyəti, idxal-ixrac prosedurları və təcrübə mübadiləsi sahələrini əhatə edir. Mütəmadi olaraq virtual və fiziki görüşlər keçirilir, qarşılıqlı səfərlər təşkil olunur və təcrübə mübadiləsi aparılır.
- 2024-cü il 17 noyabr tarixində Macarıstanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə Agentlik tərəfindən qərar qəbul edilmiş və bu barədə Macarıstan tərəfinə məlumat göndərilmişdir.
- 2024-cü il 11 mart tarixində Macarıstanın Kənd Təsərrüfatı Nazirliyi və Qida Zənciri Təhlükəsizliyi İdarəsinin nümayəndələri ilə AQTA nümayəndə heyəti arasında virtual görüş keçirilmişdir. Görüşdə heyvan xəstəlikləri və baytarlıq preparatlarına nəzarət, laboratoriya sistemi üzrə təcrübə mübadiləsi üzrə müzakirələr aparılmışdır.
- 14 Noyabr 2022-ci il tarixində AQTA sədri Qoşqar Təhməzli Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torma ilə görüşmüş, ölkəmizdə qida təhlükəsizliyi sahəsində görülən işlər, “Qida təhlükəsizliyi haqqında” Qanun və onun icrası, eləcə də beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.
- “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Macarıstanın Kənd Təsərrüfatı Nazirliyi arasında qida təhlükəsizliyi və heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumu əsasında AQTA və Macarıstanın Qida Zəncirinə Nəzarət Qurumunun nümayəndələrindən ibarət işçi qrupu yaradılmış, “Agentlik və Macarıstanın Qida Zənciri Təhlükəsizliyi Qurumu arasında əməkdaşlığa dair bir illik Tədbirlər Planı” hazırlanmışdır.